# İsveçrə Sərhəd Mühafizə Korpusunun rəisi Bakıda səfərdədir

İsveçrə Konfederasiyası Sərhəd Mühafizə Korpusunun rəisi, briqada generalı Yürq Notun başçılıq etdiyi nümayəndə heyəti 14 iyun 2016-cı il tarixdə Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir.

Səfər çərçivəsində nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarları önünə əklil qoymuş, sonra Şəhidlər xiyabanını ziyarət edərək Azərbaycanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad etmişdir.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və İsveçrə Konfederasiyasının Sərhəd Mühafizəsinin nümayəndə heyətləri arasında keçirilmiş görüş zamanı ikitərəfli əlaqələrin vəziyyəti yüksək qiymətləndirilmiş və gələcək əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır. Tərəflər arasında sərhəd təhlükəsizliyinin təmin olunması, dövlət sərhəd buraxılış məntəqələrinin fəaliyyəti, dağ təlim kurslarının təşkili, habelə gələcək illər üçün fəaliyyət istiqamətləri müzakirə edilmiş, hərbi-texniki sahədə əməkdaşlığın perspektivləri nəzərdən keçirilmişdir. Azərbaycan Respublikasının dövlət sərhədindəki əməliyyat şəraiti və mövcud təhdidlərdən danışan Dövlət Sərhəd Xidmətinin rəisi - Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyev Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20%-nin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalmasını, işğal edilmiş ərazilərin transsərhəd cinayətkar fəaliyyətlər üçün zəmin yaratdığını qeyd etmişdir.



Görüşdə, həmçinin sərhəd təhlükəsizliyinin gücləndirilməsi, müasir təlim-tədris sisteminin yaradılması istiqamətində aparılmış islahatlar, maddi-texniki bazanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər barəsində İsveçrə nümayəndələrinə ətraflı məlumat verilmişdir.

Səfər müddətində nümayəndə heyətinin Dövlət Sərhəd Xidməti Aparatının struktur bölmələri, Sahil Mühafizəsi, DSX Akademiyası, "Sərhədçi" İdman Olimpiya Mərkəzi, Xüsusi Məktəb və bir sıra digər hərbi obyektlərin fəaliyyəti ilə tanış edilməsi nəzərdə tutulub.

***"Azərbaycan"***